Gələcəyə dəstək

# Gənclik yeni güc, yeni uğur deməkdir

**Getdikcə artan iqtisadi gücünə və beynəlxalq nüfuzuna əsaslanıb inamla deyə bilərik ki, Azərbaycan bu gün ictimai-siyasi həyatın müxtəlif sahələrində sürətli inkişafa, yüksəlişə, uğurlara nail olan qüdrətli bir dövlətdir.**



Ölkəmizin ümumi inkişaf prosesində qazanılan uğurlarda əhalinin bütün təbəqələri ilə bərabər, gənclər də fəal iştirak edirlər. Gənclik isə yeni güc, yeni qüdrət və yeni zəfər deməkdir.

Dövlət gənclər siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev fəaliyyətinin ilk günlərindən başlayaraq imzaladığı fərman və sərəncamlarda, verdiyi tapşırıqlarda gənclərin təhsilinə, sağlamlığına, asudə vaxtının səmərəli təşkilinə, onların arasında milli-mənəvi dəyərlərin təbliğinə böyük diqqət yetirir. Gənc istedadların seçilməsi, onların mövcud imkanlarının daha da inkişaf etdirilməsi və yüksək təhsil alması üçün əlverişli şəraitin yaradılması dövlət gənclər siyasətinin prioritet istiqamətlərindən biridir. Gənclərin cəmiyyətimizdəki ictimai fəallığının artırılmasında, onların dövlət idarəçiliyinə cəlb olunmasında, sosial-iqtisadi problemlərinin həllində, milli-mənəvi dəyərlərin təbliğində böyük əhəmiyyətli işlər görülüb. Uğurla həyata keçirilən dövlət proqramları müasir Azərbaycan gəncliyinin dövrün tələbləri səviyyəsində hərtərəfli inkişafına geniş zəmin yaradıb. Bütün bunlar isə gənclərimizi çalışdıqları sahələrdə uğurlara qovuşdurur.

Gənclər arasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması, təbliği, həmçinin onların ümumbəşəri dəyərlərlə daha da zənginləşməsi Prezident İlham Əliyevin mənəvi-mədəni inkişafa yönəlmiş siyasətinin əsaslarından birini təşkil edir. Dövlətimizin başçısı bu il fevralın 14-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimindəki nitqində bu amili xüsusi olaraq vurğulamışdır: "...Gənclərimizin milli ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi vəzifəsi dövlətin və hər bir ailənin qarşısında durur. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda, heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz".

Azərbaycan xalqının öz milli-mənəvi dəyərlərinə həmişə sadiq olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib ki, bu sahədə uğurlu siyasət aparılır: "Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib, bu birlik daimi olmalıdır. Bizi birləşdirən ümummilli məsələnin Qarabağın azad edilməsi idi. Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır. Biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Heç kim onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın".

Böyüməkdə olan gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması, onların intellektual potensialından ölkənin sürətli inkişafı prosesində mühüm amil kimi istifadə olunması həm də dövlət tərəfindən yeni nəslə göstərilən yüksək inam və etimaddan xəbər verir. Gənclərimizin hamısının qəlbində Vətən sevgisi var. Vətənpərvərlik dəyərli məhfumdur. Ona görə də indi cəmiyyətimizdə gənclərin bu ruhda tərbiyə olunmasına çox böyük önəm verilir. Gənclərimiz Azərbaycan Prezidenti İlham Əliyevin xarici və daxili siyasətini dəstəkləyir. Bunu 7 fevral 2024-cü ildə keçirilən növbədənkənar prezident seçkilərində bütün dünya gördü.

Ümummilli Liderimiz Heydər Əliyev öz siyasətində daim yeniyetmə və gənclərə qayğı göstərmiş, ölkəyə rəhbərlik etdiyi dövrlərdə onların himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin böyüməsi sahəsində misilsiz işlər görmüşdür. Hazırda bu tarixi ənənə dövlət başçımız İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması işində gənclərimiz özləri də çox böyük fəallıq nümayiş etdirirlər. İnamla deyə bilərik ki, milli-mənəvi dəyərlərin qorunub saxlanması, daha da möhkəmləndirilməsi və müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi ölkə gənclərinin sabahkı uğurlarına etibarlı zəmin yaradır.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 aprel, №71.-S.11.